# İnşa

Azərbaycan Texniki
Universitetinin nəzdində
Bakı Texniki Kollecinin 60A
qrup tələbəsi Cəfərli Əli Mübariz
oğlu.

## 44 Günlük Vətən Müharibəsi.

İnsanlar üçün həyatda ən gözəl və ən doğma şəxs onu dünyaya gətirən anadır. Ana müqəddəsdir və məhz müqəddəsliyinə görə vətəni də anamız kimi sevir, ona «Ana Vətən!» deyirik. Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən xalqın rifahı, xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, öz ölümləri ilə ölümsüzlüyə qovuşur.

Şəhidlər qoymadı ensin bu bayraq,
Hər dalğası bir şəhidin ruhudu.
Vətən iman yerim, Vətən inancım,
Bu Vətən savaşı - xalqın ruhudu.

Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Neçə-neçə ərənlər yetişdirib bu müqəddəs torpaq, bu ulu diyar! Bu torpaq Babəklər, Cavanşirlər, Koroğlular, Bladlar, Muxtarlar, Xudayarlar, Mübarizlər, Elzaminlər, Anarlar vətənidir. Belə qəhrəmanlar həmişə yaşamışdır və daim yaşayacaqdır.

Bayraq kölgəsində şəhid məzarı,
Bundan müqəddəs yer tanımıram mən.
Vurulsam, yıxılsam, yaram qan versə,
Durub savaşaram - tanı, buyam mən.

Məhəmməd peyğəmbər (s.a.s) şəhidlər haqda:
"Şəhid cənnətdir, Allah qatında xeyli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ancaq, şəhidlər bundan müstəsnadır. Çünki şəhidlər şəhid olmanın necə üstün mərtəbə olduğunu bildikləri üçün yenidən şəhid olmaq üçün can atarlar".

Şəhidlər - dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün qeyrət salnaməsi, sabahımızın əbədi örnək təmsilçisidir.

Şəhidlər - qaranlıq keçmişimizdən işıqlı sabahımıza boylanan azadlıq pöhrələri, yüksəlişə, ucalığa can atan qəlb dünyamızdır.

Şəhidlər - qəlblərdə azadlıq, istiqlal işığı yandıraraq əsarət buxovlarını qırıb dağıdan mərd igidlər, elimizin-obamızın ən qeyrətli ərləri, xalqımızın vüqarıdırlar.

Şəhidlər - müqəddəs and yerimiz olan şəhidlər xiyabanının zinəti, lakin əbədiyaşar sakinləridirlər. Onlar bizim fəxrimizdirlər.

Vətən torpağının ucalığında,
Millətin qəlbində qaldı şəhidlər!
Ölümün gözünə dik baxa-baxa,
Ölümə qələbə çaldı şəhidlər.

2-ci Qarabağ müharibəsindən 1 il ötür. 44 günlük müharibədə nələrə şahid olduq.

1) Öz oğlunun tabutu qarşısında oynayan ana.

2) Yoldaşını və qardaşını eyni gündə şəhid verən qadın.

3) Öz qızının orqanlarını əlləri ilə yerdən toplayan ata.

4) Nişanlısının şəhidlik xəbərinə dözə bilməyib intihar edən qız.

5) Öz oğlunun məzarına girib oğlumla yatmaq istəyirəm deyən ana.

6) Hi, qolu olmaya-olmaya vətən üçün heçnə edə bilmədin deyən qazi.

7) Ürəyində qəlpə yarası olarkən belə ürəyim bu vətənə qurban deyən dəyərli Azərbaycan vətəndaşı.

8) Əsgər bu mənim qardaşımdır, deyən General.

9) Oğlunun şəhidlik xəbərini eşidib «Xocalı qisası almısan onun üçün ağlamıram» deyən qəhrəman şəhid anası.

10) Can verəndə "qızım üçün darıxıram" deyən əsgər.

11) Övladlarının corablarını cibində daşıyıb döyüşə girərkən öpüb-qoxlayan ata.

12) Oğlunun tabutunu xonça ilə qarşılayan ana.

13) Hospitalda can verərkən "Şuşanı görmədim" deyib Suqovuşanda yaralanan əsgər.

14) "Bir oğlumu şəhid verdim, ikinci oğlumu da vətən yolunda qurban verməyə hazıram" deyən şəhid anası.

15) İki oğlunu eyni gündə şəhid verən ata.

Önündə diz çöküb baş əyirik biz,
Can verib, can verdin doğma torpağa.
İndi ürəklərdir sənin Vətənin,
Döndün könüllərdə enməz bayrağa.

Bu gündən etibarən artıq, hər il sentyabrın 27-i Vətən qeyrətli oğul və qızlarımızın uyuduğu Şəhidlər Xiyabanı qərənfil yağışına qərq olur. Göz yaşına bələnmiş bu qərənfillər xalqımızın qəzəbi, nifrəti kimi obrazlaşmış, rəmzləşmişdir. Qərənfil- əzizini, doğmasını, soydaşını, qohumunu itirən və qəlbi göynəyən xalqımızın əlində intiqam bayrağına, qisas silahına çevrilmişdir. Burada yanan əbədi məşəl nakam şəhidlərimizin rahat ruhlarının təcəssümüdür. Bu yer bizim and yerimiz, səcdəgahımızdır. Xalqımız heç vaxt vətən naminə canını qurban vermiş şəhid övladlarını unutmayacaq, onları əbədi xatirə kimi qəlbində yaşadacaqdır. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər.

Biz əsl vətəndaşlıq borcumuzu yerinə yetirərək canından keçməklə xalqın qəhrəmanlıq dastanı yazan igidlərimizin xatirəsini yaşatmalıyıq.

Bomba partlayışı, avtomat səsi,
Qan axır çay kimi payız günləri.
Güllələr önündə sipər olublar,
Ana torpağımın mərd əsgərləri.

Döyüşə hazırdır hamı əzmlə,
Bu günlər əbədi xatirə olar.
Bircə kiçik oğlan gözündə yaşla,
Atasın gözləyib, kədərlə ağlar.

Günəşi örtərək o inildəyən,
Çox şey unudular, tarixə dönər.
İzzət ata artıq qayıdan deyil
Körpənin dərdini başqa kim bilər.